# JURNALIN QAYDALARI

**Məqalənin qəbulu şərtləri:**
- Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəşrlər qarşısında qoyduğu tələblər əsas götürülür.
- Tələblərə əsasən xaricdə və ya respublikada çap edilmiş eyni adlı və məzmunlu məqalələrin jurnala tədqim edilməsi yolverilməzdir.
- Plagiat aşkar edilən müəlliflərin məqalələri çap edilmir və həmin müəllifə jurnala məqalə təqdim etməyə qadağa qoyulur.
- Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.
- Yalnız Redaksiya heyəti tərəfindən müsbət rəy verilən məqalələr çap olunur.
- Redaksiya heyəti müəlliflərin elmi yaradıcılığında mövqelərini tam ifadə etməsi üçün hər cür şərait yaratmışdır.
- Müəlliflərin və Redaksiya heyətinin mövqeyi uyğun gəlməyə bilər.
- Redaksiya heyəti redaktə hüququna malikdir.
- Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
- Jurnal ildə bir dəfə nəşr edilir.
- Məqalələr müəlliflərin hesabına çap edilir.
- Məqalələr elektron formada Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi-tədqiqat laboratoriyasına təqdim edilməlidir.
- Jurnal respublikanın əsas kitabxanalarına təqdim edilir.
- Jurnalın elektron variantı Bakı Dövlət Universitetinin saytında yayımlanır.

**Məqalənin tərtibi qaydaları:**
- Mətn Times New Roman şrifti, 12 ölçü, 1 interval ilə yazılmalıdır;
- Həcm 7-10 səhifə (təqribən 2500-5000 söz);
- Məqalənin adı hamısı böyük hərflərlə tünd rəngdə (Bold) mərkəzdə yazılmalıdır;
- Məqalənın adı 3 sətirdən artıq olmamalıdır.
- Məqalənin adı ilə məzmunu tam uyğun olmalıdır;
- Məqalənin başlığının altında sağ tərəfdə müəllifin adı, soyadı – tünd rəngdə (Bold), fakültəsi, akademik və elektron poçt ünvanı göstərilməlidir;
- İlk səhifədə 100-200 sözdən ibarət 2 dildə (Azərbaycan və ingilis dillərində) xülasə və açar sözləri verilir. Azərbaycan dilində xülasənin altından məqalənin ingiliscə başlığı, xülasə və açar sözlər verilməlidir. Xülasələrin adı, mətni və açar sözlər eyni olmalıdır;
- Məqalələr struktur olaraq "Xülasə", "Giriş", "Əsas hissə" (Başlıqlar), "Nəticə" (yekun, elmi yenilik, təklif), "Ədəbiyyat siyahısı"ndan ibarət olmalı və məzmun buna uyğun qurulmalıdır;
- Məqalə içindəki yarımbaşlıqlar Birinci hərfi böyük, qalanları kiçik olmaqla verilməlidir. Məsələn, Giriş, Nəticə, Ədəbiyyat siyahısı;
- Məqalədə istifadə edilən ədəbiyyat və internet resursları son 5-10 ilin tədqiqatlarını əhatə etməlidir. Mənbələrin ünvanı isə dəqiq göstərilməlidir (nəşr yeri, ili, nəşriyyat və cəmi səhifəsi);
- Məqalədə istifadə edilən bütün ədəbiyyat və internet resursları məqalənin sonunda əlifba sırası ilə düzülür. Mətndə istinadlar həmin sıraya uyğun kodla verilir. Məsələn [5, s. 8];
- İnternet resursları göstərilərkən, əvvəlcə istinad olunan məqalənin ya yazının müəllifi, məqalənin ya məlumatın bağlılığı və ondan sonra hiperiqtibas qoyulmalıdır;
- Məqalədə sitatlar məqalənin ümumi həcminin yalnız 30 faizini əhatə edə bilər. Yerdə qalan hissə yeni fikir olmalıdır;
- Cədvəl və şəkil verilərsə, cədvəl 1, cədvəl 2; şəkil 1, şəkil 2 və s. şəklində sıralanmalı və ad verilməlidir. Məsələn, Cədvəl 1. Azərbaycan respublikasının əhalisi (1999-cu il siyahıyaalmasına əsasən);
- İqtibaslar, cədvəllər və cədvəlin mənbəsi cədvəlin aşağısında 10 ölçüdə verilməlidir;
- Məqalədə verilən şəkil və xəritələr ayrıca fayl (GİF, JPEG) kimi də təqdim edilməlidir;
- Məqalələr tam redaktə olunduqdan sonra təqdim edilməlidir.

Əlaqə üçün ünvan: dunya.azerbaycanlilari.etl@bsu.edu.az